Lənkəran qalası Lənkəran şəhərində yerləşmişdir. Qala İranın hücumlarından qorunmaq məqsədilə ruslar tərəfindən tikilmişdir.

Müdafiə, istehkam xarakteri daşıyan bu qalanın tikintisinə 1726-cı ildə başlanılmış və tikintisi 1727-ci ilin payızında başa çatmışdır (Böyükağa Hüseynbalaoğlu, Mirhaşım Talışlı. Lənkəran. B., 1990, səh.22).

Qeyd olunan dövrdə Lənkəran ərazisi Rusiyanın hakimiyyəti altında idi. Belə ki, Rusiya çarı I Pyotr 1722-ci il iyunun 18-də Xəzəryanı bölgələrə yürüş etmiş və bu yürüş Peterburq müqaviləsi ilə başa çatmışdır. 1723-cü il sentyabrın 12-də Rusiya ilə Səfəvi arasında imzalanmış Peterburq müqaviləsinə əsasəm Gilandan Dərbəndə qədər olan Xəzəryanı bölgələr, o cümlədən Lənkəran Rusiya tərəfindən işğal edilmişdir.

A.A.Bakıxanov məşhur "Gülüstani-İrəm" əsərində Lənkəran qalasının 1812-ci ildə tikildiyini qeyd edərək yazmışdır: "Naibüssəltənə Abbas Mirzənin (İran şahı Fətəli şah Qacarın vəliəhdi,İran ordusunun Baş komandanı - İ.Ş.) icazəsilə farslar Lənkəranda, Ərkivanda və Astarada üç qala tikmiş və bu qalalara mühafizələr, topxana və azuqə təyin olunmuş, qalan qoşun isə geri qayıtmışdır" (B., 1991, səh.195, rus dilində).

Lənkəran qalasının tikilməsi ilə bağlı ikinci fakt heç də inandırıcı görünmür. Çünki qeyd olunan dövrdə Birinci Rusiya-İran müharibəsi (1804-1813) getmiş və müharibənin gedişi zamanı qısa müddət ərzində geniş ərazini əhatə edən belə bir qalanın tikilməsi bir qədər mümkünsüz görünür. Digər tərəfdən isə Lənkəran qalası bu müharibədə İran ordusunun mühüm dayaq məntəqəsi olmuşdur. Qalanın sahəsi 35 hektara yaxın olmuş, Lənkəran şəhərinin indiki Mir Mustafa xan küçəsi, Heydər Əliyev pros-

# LƏNKƏRAN QALASI



pekti və Lənkərançayın sahilləri boyunca uzanırdı. Qalanın şimal və cənub tərəflərində bürclər-qüllələr tikilmiş və bu qüllələr müvafiq olaraq "Şimal" və "Cənub" bürcləri adlandırılmışdır. "Şimal" və "Cənub" bürclərinin eyni vaxtda, 1747-1786-cı illərdə inşa edildikləri ehtimal olunur. Bu bürclərə yeraltı tunellə yol olmuşdur. Təqribən 2x2 metr diametrli bu tunel boyunca tunelin işıqlanmasını təmin etmək məqsədi ilə sağ və sol divarlarda çıraqlar qoyulmuşdur (Mirhaşım Talışlı, Etibar Əhədov. Lənkəran: ensiklopedik məlumat. B., 2014, səh.306).

1812-ci il dekabrın 31-də Lənkəran qalası uğrunda ruslarla iranlılar arasında həlledici döyüş baş vermiş. Sadıq xan qətlə yetirilmiş və general P.Kotlyarevskinin başçılığı altında ruslar 1813-cü il yanvarın 1-də Lənkəran qalasını ələ keçirməklə Talış xanlığını işğal etmişlər. İşğaldan sonra ruslar qala divarlarını dağıtmış, Cənub və Şimal bürclərindəki qüllələrə isə toxunulmamışdır. Sonralar qalanın Cənub bürcündəki qüllə həbsxanaya, Şimal bürcündəki qüllə isə mayaka çevrilmişdir. Qalanın Şimal bürcünün yerləşdiyi ərazi bu gün də yerli sakinlər tərəfindən Qələ-Qala adlandırılır. Sovet dönəmində Qala ərazisi 26 Bakı komissarı küçəsi adlanmışdır. Hal-hazırda həmin küçə Qala Xiyabanı adlanır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Lənkəran qalasının qalıqları, bürcləri 4802 invertar sayı ilə XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.

***İldırım ŞÜKÜRZADƏ,***
***Lənkəran rayonunun***
***Havzava kənd tam orta məktəbinin***
***tarix müəllimi***